№6
26.01.2012

# Ə M R

**Bakı şəhəri**

**"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın icrası haqqında**

"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2011-ci il tarixli 1621 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).
2. Səhiyyə Nazirliyinin struktur bölmələrinin və qurumlarının rəhbərlərinə tapşırılsın ki, bu əmrin 1-ci bəndi ilə təsdiq edilmiş Tədbirlər Planının həyata keçirilməsi səlahiyyətləri daxilində təmin edilsin.
3. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə olunsun.

**Oqtay Şirəliyev**

Əsli ilə düzdür

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
26.01.2012 -ci il tarixli 06 №-li əmri ilə
təsdiq edilmişdir

**"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə**
**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin**
**Tədbirlər Planı**

| | Tədbirlər in adı | İcraçı təşkilatlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| **6.2.4. Hərbi xidmətdə olan gənclərin mənəvi-psixoloji durumunun yüksəldilməsinə və asudə vaxtının səmərəli təşkilinə kömək məqsədi ilə hərbi hissələrdə müxtəlif tədbirlərin keçirilməsi** | | | |
| 1. | Hərbi xidmətdə olan gənclər arasında mənəvi-psixoloji durumun yüksəldilməsinə yönəldilmiş tibbi və psixoloji məsləhət-məlumatlandırma tədbirlərinin keçirilməsi üçün metodik vəsaitlərin, bukletlərin hazırlanması və paylanması | İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) | 2012-2013 |
| 2. | Hərbi xidmətdə olan gənclər arasında narkomaniyanın, alkoqolizmin, tütünçəkmənin və digər sosial neqativ halların profilaktikasına, eləcə də öz sağlamlığına qarşı məsuliyyət hissinin gücləndirilməsi məqsədilə hərbi hissələrdə mütəxəssislər tərəfindən təbliqat xarakterli görüşlər keçirilməsi | Respublika Narkologiya Mərkəzi (RNM), İSİM, Respublika Gigiyena və Epidemiologiya Mərkəzi (RGEM), yerli səhiyyə idarə və müəssisələri | 2012-2015 |

| | | | |
|---|---|---|---|
| **6.6.1. Rayon və şəhərlərdə zərərli vərdişlərin profilaktikası ilə bağlı seminar, konfrans, treninq, sərgi, festil, müsabiqə, mədəni-kütləvi aksiya və təşviqat kampaniyalarının keçirilməsi, sosial reklam çarxlarının hazırlanması və televiya kanallarında işıqlandırılması, teatr tamaşalarının hazırlanması, onların rayon və şəhərlərdə nümayişinin təşkil olması** | | | |
| 1. | Gənclər arasında zərərli vərdişlərin profilaktikasını, xüsusən tütünsüz həyat tərzinin təbliğini əhatə edən çap materiallarını n (bukletlər, plakatlar, kitabçalar və s.) hazırlanması və onların KİV ilə yayılmasının təşkil edilməsi | İSİM | 2012-2015 |
| 2. | Gənclər arasında zərərli vərdişlərin profilaktikası ilə bağlı respublikanın ali və orta təhsil müəssisələrində tələbə/şagird heyəti ilə müvafiq həkim-mütəxəssislərin görüşü və mühazirələrin təşkili | İSİM | Mütəmadi |
| 3. | Gənclər üçün infeksion (HİV-infeksiyası, hepatit B və C) xəstəliklərlə mübarizəyə dair çap materiallarının (bukletlər, kitabçalar, plakatlar və s.) hazırlanması və yayılması | İSİM, Respublika ÇS-lə Mübarizə Mərkəz RGEM | Mütəmadi |
| 4. | Piylənmə, qeyri-sağlam qidalanma və fiziki passivlik, infeksion və qeyri-infeksion xəstəliklərin profilaktikasına dair radio və televiziya kanallarında mütəxəssislərin çıxışlarının təşkilinin təkmilləşdirilməsi məqsədilə tədbirlərin keçirilməsi | Mətbuat xidməti, İM, RGEM | Mütəmadi |
| **6.6.2. Gənclər arasında sağlam həyat tərzinin kütləvi bədən tərbiyəsi və idman vasitəsilə geniş təbliğ ilməsi** | | | |
| 1 | KİVdə, radio və televiziya kanallarında "İdman və sağlamlıq" mövzusunda mütəxəssislərin çıxışlarının təşkili | Mətbuat xidməti (N), İSİM | Mütəmadi |
| **6.6.3. Sağlam həyat tərzi və reproduktiv sağlamlıq sahəsində maarifləndirmə işinin genişləndiribsi** | | | |
| 1. | Reproduktiv sağlamlıq və ailə planlaşdırılmasına dair gənclərin məlumatlandırılması məqsədilə metodik vəsaitin, buklet, plakat və kitabçaların hazırlanaraq paylanması | Elmi-tədqiqat Mamalıq və Ginekologiya İnstitu (ETMGİ), İSİM | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| 2. | Təhsil müəssisələrində gənclər və yeniyetmələr üçün sağlam həyat tərzi və reproduktiv sağlamlığa dair mühazirələrin təşkili | ETMGİ, İSİM | Mütəmadi |
| **6.6.5. Erkən nikahların qarşısının alınması məqsədilə maarifləndirmə işinin aparılması** | | | |
| 1. | Erkən nikahların qarşısının alınması məqsədilə KİVdə, radio və televiziya kanallarında mütəxəssislərin çıxışlarının təşkili | MX, ETMGİ, İSİM | 2012-2015 |
| 2. | Erkən nikahların qarşısının alınması məqsədilə təhsil müəssisələrində gənclər və yeniyetmələr üçün mühazirələrin təşkili | ETMGİ. İSİM | 2012-2015 |